

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 25 noyabr 2026-cı il №83 (3085) https://mod.gov.az Qiyməti 30 qəpik

## Prezident İlham Əliyev ABŞ Prezidenti Donald Trampa təşəkkür edib




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev TRIPP layihəsinin işə salınması münasibətilə ona ünvanladığı xoş sözlərə görə ABŞ Prezidenti Donald Trampa təşəkkür edib.

AZƏRTAC xəbər verir ki, bu barədə Prezident İlham Əliyevin “X” hesabında paylaşım edilib.

Paylaşımda deyilir: “Hörmətli Prezident Donald Tramp,

Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu (TRIPP) layihəsinin başlanması münasibətilə mənə ünvanladığınız xoş sözlərə görə səmimi minnətdarlığımı bildirmək istəyirəm”.

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev:

## Vyetnamın hər zaman, xüsusilə də 2020-ci ilin Vətən müharibəsi dövründə verdiyi dəstəyinə və ədalətli mövqeyinə görə minnətdarıq”



*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin noyabrın 21-də Vyetnam Sosialist Respublikasının paytaxtı Hanoyda rəsmi qarşılanma mərasimi olub.*

Vyetnamın və Azərbaycanın Dövlət bayraqlarının dalğalandığı meydanda Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Vyetnam Sosialist Respublikasının Prezidenti To Lam və xanımı No Fon Li Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı qarşılayıblar.

Azərbaycanın və Vyetnamın Dövlət himnləri səslənib.

Fəxri qarovul dəstəsinin rəisi dövlətimizin başçısına raport verib.

Prezidentlər fəxri qarovul dəstəsinin qarşısından keçiblər.

Vyetnam Sosialist Respublikasının rəsmi şəxsləri Prezident İlham Əliyevə, Azərbaycan Respublikasının nümayəndə heyətinin üzvləri isə Prezident To Lama təqdim edilib.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında prezidentlərin qarşısından keçib.

Sonra rəsmi foto çəkdirilib.

* * *

Noyabrın 21-də Hanoyda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Vyetnam Sosialist Respublikasının Prezidenti To Lam ilə geniş tərkibdə görüşü olub.

Görüşdə çıxış edən Vyetnam Prezidenti **To Lam** deyib:

- Zati-aliləri İlham Əliyev, Azərbaycan Respublikasının Prezidenti.

Zati-aliləri, Vyetnama rəsmi səfərə xoş gəlmisiniz. Mənə məlumat verildi ki, bu, Sizin bizim ölkəyə ikinci səfərinizdir. Bu da Sizin Vyetnama və onun xalqına bəslədiyiniz səmimi münasibətin göstəricisidir. Mən tam əminəm ki, səfəriniz ikitərəfli münasibətlərimizə yeni təkan verəcək, onları daha da dərinləşdirəcək, məzmunlu və səmərəli edəcək.

**(Ardı 2-ci səhifədə)**

## “Hərbi xidmətkeçmə haqqında” Əsasnamənin təsdiq edilməsi barədə” və “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 18-ci bəndlərini rəhbər tutaraq **qərara alır**:

**Maddə 1.** Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 1, maddə 14 (Cild I); 2024, № 1, maddə 19, № 2, maddə 137, № 7, maddə 755, № 12 (II kitab), maddələr 1328, 1350; 2025, № 1, maddələr 4, 7, № 4 (I kitab), maddə 324, № 6, maddələr 524, 525, 527, № 12 (I kitab), maddə 1124; 2026, № 1, maddə 12, № 4, maddələr 295, 298, № 6, maddə 489) ilə təsdiq edilmiş “Hərbi xidmətkeçmə haqqında” Əsasnamədə aşağıdakı dəyişikliklər edilsin:

1.1. 42-ci maddəyə aşağıdakı məzmunda beşinci hissə əlavə edilsin:

“Azərbaycan Respublikası Silahlı Qüvvələrinin və hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarının (dövlət orqanlarının strukturuna daxil olan qurumların) sifarişi əsasında ali təhsil müəssisələrinin magistratura (rezidentura) səviyyəsini müvəffəqiyyətlə bitirmiş, habelə doktoranturada (adyunkturada) təhsilini başa vuraraq müvafiq elmi dərəcə almış zabitlərin hərbi rütbədə olma müddəti ali təhsilin göstərilən səviyyələrinin hər biri üzrə bir dəfə olmaqla bir il azaldılır.”;

1.2. 45-ci maddənin üçüncü hissəsi aşağıdakı redaksiyada verilsin:

“Leytenant hərbi rütbəsində olma müddəti təhsil müddəti 5 il olan hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisələrini bitirmiş hərbi qulluqçular üçün - 2 il (aviasiyanın uçuş heyətində və sualtı gəmilərdə xidmət edən hərbi qulluqçular üçün - 1 il), müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi digər hallarda - 1 il müəyyən edilir.”.

**(Ardı 3-cü səhifədə)**

## “Hərbi xidmətkeçmə haqqında” Əsasnamənin təsdiq edilməsi barədə” və “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2026-cı il 3 noyabr tarixli 511-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Hərbi xidmətkeçmə haqqında” Əsasnamənin təsdiq edilməsi barədə” və “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2026-cı il 3 noyabr tarixli 511-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram**:

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Hərbi xidmətkeçmə haqqında” Əsasnamənin 45-ci maddəsinin üçüncü hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

1.2. “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikası Qanununun 31.5-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.3. həmin Qanunun 31.5-ci maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Hərbi xidmətkeçmə haqqında” Əsasnamənin 45-ci maddəsinin üçüncü hissəsinə və “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikası Qanununun 31.5-ci maddəsinə uyğun olaraq, leytenant hərbi rütbəsində olma müddəti ilə bağlı digər halları iki ay müddətində müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. “Hərbi xidmətkeçmə haqqında” Əsasnamənin təsdiq edilməsi barədə” və “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2026-cı il 3 noyabr tarixli 511-VIIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

3. “Hərbi xidmətkeçmə haqqında” Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 30 mart tarixli 692 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 3, maddə 176 (Cild I); 2024, № 1, maddə 34, № 2, maddə 153, № 12 (II kitab), maddələr 1366, 1383; 2025, № 1, maddə 35, № 6, maddə 549, № 12 (I kitab), maddə 1153; 2026, № 2, maddə 123, № 4, maddə 310) 2-ci hissəsinin dördüncü abzasına ikinci halda “cümləsində” sözündən sonra “, 45-ci maddəsinin üçüncü hissəsində” sözləri əlavə edilsin.

4. “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi və “Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti haqqında Əsasnamə”nin təsdiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 fevral tarixli 593 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 82 (Cild I); 2024, № 4, maddələr 375, 397, № 5 (I kitab), maddə 529, № 12 (II kitab), maddələr 1366, 1383; 2025, № 1, maddə 35, № 4 (I kitab), maddələr 325, 338, № 6, maddə 549, № 8, maddə 773, № 12 (I kitab), maddə 1153; 2026, № 2, maddə 123, № 6, maddələr 513, 514, 518) 5-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. 5.1-ci bəndə “31.1-ci,” sözlərindən sonra “31.5-ci,” sözləri əlavə edilsin;

4.2. 5.2-1-ci bəndə “15.3-cü” sözlərindən sonra “maddəsinin ikinci cümləsində, 31.5-ci maddəsində” sözləri əlavə edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 23 noyabr 2026-cı il

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev:

# Vyetnamın hər zaman, xüsusilə də 2020-ci ilin Vətən müharibəsi dövründə verdiyi dəstəyinə və ədalətli mövqeyinə görə minnətdarıq”







**(Əvvəli 1-ci səhifədə)**

Ötən ilin mayında Azərbaycana dövlət səfərimiz zamanı Sizin, birinci xanımın, Birinci vitse-prezidentin, ailənizin və Azərbaycan xalqının mənim, Vyetnamın birinci xanımının və Vyetnamın yüksəksəviyyəli nümayəndə heyətinin səmimi şəkildə qəbulundan və qarşılanmasından çox məmnun oldum və bunu yüksək qiymətləndirirəm.

Biz Azərbaycandakı vəziyyəti hər zaman yaxından izləmişik. Mükəmməl rəhbərliyinizlə Azərbaycanın əldə etdiyi mühüm nailiyyətlər münasibətilə Sizi təbrik etmək istərdim. Son illərdə Azərbaycanın ümumi daxili məhsulu artmaqda davam edir. Əhalinin həyat səviyyəsi daim yaxşılaşır və Azərbaycanın beynəlxalq aləmdəki mövqeyi davamlı olaraq güclənib. Biz Azərbaycanı regionda daimi olaraq mühüm strateji tərəfdaş kimi qəbul etmişik.

Uzunmüddətli ənənəvi dostluğumuz hər iki ölkədə nəsillər boyu liderlər və xalqlar tərəfindən qorunub-saxlanılıb və inkişaf etdirilib. Vyetnam keçmişdə milli azadlıq və müstəqillik uğrunda apardığı mübarizədə, həmçinin hazırkı milli inkişaf səylərində Azərbaycanın göstərdiyi dəstəyi hər zaman xatırlayır və yüksək qiymətləndirir.

2025-ci ilin mayında münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldilməsi ikitərəfli əlaqələrimizdə yeni səhifə açan tarixi mərhələdir. Hər iki ölkə qarşısında bütün səviyyələrdə və bütün sahələrdə duran mühüm vəzifə əməkdaşlığımızın məzmununu şaxələndirərək, onu konkret proqramlara, layihələrə və nailiyyətlərə çevirərək xalqlarımıza əhəmiyyətli faydalar qazandırmaqdır.

Bu il AQEM Zirvə Görüşünün uğurla keçirilməsi münasibətilə Sizi bir daha təbrik edirəm. Ümidvaram ki, bugünkü ikitərəfli danışıqlarımız zamanı gələcəkdə razılaşmaların həyata keçirilməsini davam etdirmək, bütün istiqamətlər üzrə əməkdaşlığı daha da inkişaf etdirmək vasitələri və yolları barədə açıq müzakirələr aparacağıq.

İndi isə cənab Prezident, çıxış üçün sözü Sizə vermək istəyirəm.

* * *

Azərbaycan Prezidenti **İlham Əliyev** çıxış edərək deyib:

- Cənab Prezident, əziz dostlar. İlk növbədə, ölkənizə rəsmi səfərə gəlmək üçün məni dəvət etdiyinizə, mənə və nümayəndə heyətimə göstərilən qonaqpərvərliyə görə Sizə təşəkkürümü bildirmək istəyirəm. Dost Vyetnamı yenidən ziyarət etməyə və ölkənizin sürətli inkişafına şahid olmağa çox şadam. 2014-cü ildə Vyetnama səfər etmişdim və o vaxtdan bəri Sizin rəhbərliyinizlə ölkənizdə müxtəlif istiqamətlərdə möhtəşəm tərəqqi əldə olunmuşdur. Vyetnam indi çox önəmli beynəlxalq aktordur və tək regionunuzda deyil, qlobal miqyasda önəmli rol oynayır.

Sizin sürətli sosial və iqtisadi inkişafınız bütün dünyaya məlumdur. Ölkənizdəki çox yaxşı investisiya mühiti dünyanın müxtəlif yerlərindən olan bir çox şirkətlər üçün çox cəlbedicidir. Sizin də doğru qeyd etdiyiniz kimi, cənab Prezident, münasibətlərimiz strateji əhəmiyyət daşıyır. Ötən il Sizin Azərbaycanda dövlət səfəriniz zamanı biz bu münasibətləri rəsmən strateji səviyyəyə yüksəltdik, lakin bu münasibətlər hətta bundan da əvvəl strateji xarakter daşıyırdı.



Xalqlarımız arasında əlaqələrin tarixi kökləri var və Sizin milli dəyərləriniz uğrunda müstəqillik mübarizəniz Azərbaycan xalqı tərəfindən həmişə dəstəklənmişdir.

Vyetnamın Prezidenti, böyük rəhbər Ho Şi Minin 1959-cu ildə Azərbaycana tarixi səfəri, həmçinin əlamətdar hadisə olmuşdur və bu səfərlə bağlı xatirələr hələ də bizim qəlbimizdədir. Həmin səfər zamanı Prezident Ho Şi Min Azərbaycanın bəzi sənaye sahələrini, xüsusilə neft sənayesi ilə əlaqəli olan sahələri ziyarət edib. Bundan sonra bir çox azərbaycanlı mütəxəssis neft sənayesinin inkişafına dəstək olmaq üçün Vyetnama göndərilmişdir.

Əməkdaşlığımız bir çox sahələri əhatə edir və biz beynəlxalq aləmdə güclü qarşılıqlı əlaqəyə malik olduğumuz üçün çox şadıq. AQEM Zirvə Görüşündə yüksəksəviyyəli iştirakınız üçün Sizə minnətdarıq.

* * *

Söhbət zamanı ölkələrimiz arasında yüksəksəviyyəli nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin əlaqələrimizin inkişafında roluna toxunulub, yeni əməkdaşlıq mexanizmlərinin müəyyənləşdirilməsi baxımından bu səfərlərin rolu vurğulanıb. Ölkələrimizin beynəlxalq təşkilatlar, o cümlədən BMT, Qoşulmama Hərəkatı, AQEM və digər təsisatlar çərçivəsində əməkdaşlığından, həmçinin Azərbaycanla ASEAN arasında əlaqələrin inkişaf etdirilməsi məsələlərindən bəhs olunub.

Vyetnamın Xəzər regionu və Cənubi Qafqaz ölkələri ilə əməkdaşlığının qurulmasında Azərbaycanın rolunun və dəstəyinin önəmi qeyd edilib.







Görüşdə enerji sahəsində, o cümlədən neft-qaz və enerji təhlükəsizliyi, bərpaolunan enerji, iqtisadiyyat, investisiyalar, turizm, təhlükəsizlik, müdafiə və müdafiə sənayesi sahələrində əməkdaşlıq, parlamentlərarası münasibətlər, nəqliyyat-logistika, aviasiya və mədəniyyət əlaqələri ilə bağlı məsələlər müzakirə olunub. Azərbaycanın bərpaolunan enerji, o cümlədən külək və Günəş enerjisi sahələrində böyük potensialının olduğu bildirildi. Həmçinin infrastruktur layihələri, o cümlədən Şərq-Qərb və Şimal-Cənub marşrutları üzrə əməkdaşlıqla bağlı fikir mübadiləsi aparıldı, Trans-Xəzər marşrutunun əhəmiyyəti vurğulanıb.

Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) ilə Vyetnam Milli Neft və Qaz Şirkəti (PetroVietnam) arasında əlaqələrin dərinləşdirilməsi istiqamətində fikir mübadiləsi aparılıb.

**(Ardı 3-cü səhifədə)**

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev:

# Vyetnamın hər zaman, xüsusilə də 2020-ci ilin Vətən müharibəsi dövründə verdiyi dəstəyinə və ədalətli mövqeyinə görə minnətdarıq”







**(Əvvəli 2-ci səhifədə)**

Görüşdə hər iki ölkənin mina problemindən əziyyət çəkdiyi vurğulanıb, bu xüsusda minatəmizləmə sahəsində də tərəfdaşlığın əhəmiyyəti qeyd edilib.

Prezident İlham Əliyev 2020-ci ildə Vətən müharibəsi dövründə BMT-nin Təhlükəsizlik Şurasında Azərbaycanla bağlı nəzərdə tutulan məhdudiyyətlərə qarşı Vyetnamın göstərdiyi dəstəyi yüksək qiymətləndirib və bunun heç vaxt unudulmayacağını deyib.

Azərbaycan və Vyetnam xalqlarının müstəqillik və azadlıq uğrunda mübarizədə cəsarət, qəhrəmanlıq nümayiş etdirdikləri vurğulanıb, bunun iki xalqı birləşdirən amil olduğu qeyd edilib.

Dövlətimizin başçısının səfərinin nəticələrinin ölkələrimiz arasında tərəfdaşlığın gələcəyi üçün mühüm rol oynayacağına əminlik ifadə olunub.

Söhbət əsnasında qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

* * *

Noyabrın 21-də Hanoyda Azərbaycan Prezidenti İlham Əliyev və Vyetnam Prezidenti To Lam “Azərbaycan Respublikası Prezidentinin və Vyetnam Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi, Vyetnam Sosialist Respublikası Prezidentinin Birgə Bəyanatı”nı qəbul ediblər.

Sonra Azərbaycan Respublikası ilə Vyetnam Sosialist Respublikası arasında imzalanmış sənədlərin Azərbaycan Prezidenti İlham Əliyevin və Vyetnam Prezidenti To Lamın iştirakı ilə mübadiləsi mərasimi olub.

“Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi ilə Vyetnam Sosialist Respublikasının İctimai Təhlükəsizlik Nazirliyi arasında yanğın və xilasetmə xidmətləri sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu”nu Azərbaycanın fövqəladə hallar naziri Kəmaləddin Heydərov və Vyetnamın ictimai təhlükəsizlik naziri Lıonq Tam Kuanq mübadilə ediblər.

“Azərbaycan Respublikası Prezidentinin Administrasiyası ilə Vyetnam Sosialist Respublikası Prezidentinin Ofisi arasında Anlaşma Memorandumu”nu Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri Samir Nuriyev və Vyetnam Sosialist Respublikası Prezidenti Ofisinin rəhbərinin müavini Nguyen Hoanq Anh mübadilə ediblər.

“Azərbaycan Respublikasında Günəş elektrik stansiyası layihəsinin və külək elektrik stansiyası layihəsinin qiymətləndirilməsinə, inkişafına və həyata keçirilməsinə dair Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə “ROX Group” arasında İcra Müqaviləsi”ni Azərbaycanın energetika naziri Pərviz Şahbazov və “ROX Group”un təsisçisi və sədri Tran Anh Tuan mübadilə ediblər.

* * *

Noyabrın 21-də Hanoyda Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyevanın Vyetnamın birinci xanımı No Fon Li ilə Hanoydakı İrs Evində görüşü olub.

Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya, qızları Leyla Əliyevaya və Arzu Əliyevaya Hanoyun Köhnə Məhəlləsindəki (Old Quarter) XIX əsrdə tikilmiş, orijinal yaşayış memarlığını və tacir həyat tərzini əks etdirən İrs Evində Vyetnam irsinə aid əl işləri haqqında məlumat verilib.

Azərbaycanın birinci xanımı və qızları Vyetnam çay təqdimetmə mərasiminə baxıblar.

Sonra tarixi XI əsrə gedib çıxan və UNESCO-nun Qeyri-maddi Mədəni İrs siyahısına daxil edilmiş ənənəvi ifa sənəti (Ca Trù) nümayiş etdirilib. Bu, qadın ifaçının poetik ifası ilə üçsimli musiqi alətinin və barabanın müşayiətini özündə birləşdirir.

Daha sonra Vyetnamın rəmzi milli geyimi (Áo Dài) nümayiş olunub. Ənənəvi ipək parçalardan hazırlanmış, naxış və işləmələrlə bəzədilmiş milli geyimlər Vyetnamın müxtəlif dövrlərini əhatə edir.

Sonda Azərbaycanın birinci xanımına Vyetnam kalliqrafiya sənəti nümunəsi təqdim olunub.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Vyetnam Sosialist Respublikasına rəsmi səfəri noyabrın 21-də başa çatıb.

Hanoyun Noi Bai Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Vyetnam Sosialist Respublikasının Elm və Texnologiyalar Akademiyasının prezidenti Tran Honq Thai və digər rəsmi şəxslər yola salıblar.

**AZƏRTAC-ın materialları əsasında**





## “Hərbi xidmətkeçmə haqqında” Əsasnamənin təsdiq edilməsi barədə” və “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

# Azərbaycan Respublikasının Qanunu

**(Əvvəli 1-ci səhifədə)**

**Maddə 2.** “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 56 (Cild I); 2024, № 2, maddə 137, № 4, maddə 363, № 12 (II kitab), maddələr 1328, 1350; 2025, № 1, maddə 4, № 4 (I kitab), maddələr 305, 311, № 6, maddələr 525, 527, № 12 (I kitab), maddə 1124; 2026, № 1, maddə 12, № 4, maddə 298, № 6, maddə 489) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 31.5-ci maddə aşağıdakı redaksiyada verilsin:

“31.5. Leytenant hərbi rütbəsində olma müddəti təhsil müddəti 5 il olan hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisələrini bitirmiş hərbi qulluqçular üçün - 2 il (aviasiyanın uçuş heyətində və sualtı gəmilərdə xidmət edən hərbi qulluqçular üçün - 1 il), müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi digər hallarda - 1 il müəyyən edilir.”;

2.2. aşağıdakı məzmunda 32.3-cü maddə əlavə edilsin:

“32.3. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin və hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarının (dövlət orqanlarının strukturuna daxil olan qurumların) sifarişi əsasında ali təhsil müəssisələrinin magistratura (rezidentura) səviyyəsini müvəffəqiyyətlə bitirmiş, habelə doktoranturada (adyunkturada) təhsilini başa vuraraq müvafiq elmi dərəcə almış zabitlərin hərbi rütbədə olma müddəti ali təhsilin göstərilən səviyyələrinin hər biri üzrə bir dəfə olmaqla bir il azaldılır.”.

**Maddə 3. Keçid müddəa**

Bu Qanunun 1.1-ci və 2.2-ci maddələri bu Qanun qüvvəyə mindiyi tarixədək Azərbaycan Respublikası Silahlı Qüvvələrinin və hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarının (dövlət orqanlarının strukturuna daxil olan qurumların) sifarişi əsasında ali təhsil müəssisələrinin magistratura (rezidentura) səviyyəsini müvəffəqiyyətlə bitirmiş, habelə doktoranturada (adyunkturada) təhsilini başa vuraraq müvafiq elmi dərəcə almış zabitlərə də şamil olunur.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 3 noyabr 2026-cı il

## Azərbaycan Respublikası vətəndaşlarının 2027-ci il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında

# Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 26-cı bəndini rəhbər tutaraq, “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikası Qanununun 12.3-cü və 40.1-ci maddələrinə əsasən və Azərbaycan Respublikasının Silahlı Qüvvələrini şəxsi heyətlə komplektləşdirmək məqsədilə **qərara alıram**:

1. 2009-cu ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1997-2008-ci illərdə doğulmuş, yaşı 30-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2027-ci il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılsınlar.

2. “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2027-ci il yanvarın 1-dən 30-dək ehtiyata buraxılsınlar.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsün.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 23 noyabr 2026-cı il

# Müdafiə Nazirliyində NATO nümayəndə heyəti ilə görüş keçirilib





Müdafiə Nazirliyinin Logistika Baş İdarəsində NATO-nun Dəstək və Təchizat Agentliyinin (NSPA) nümayəndə heyəti ilə Əməliyyatların Logistik Dəstəyi (OLSP) mexanizmlərinin fəaliyyətinə dair görüş keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, görüşdə müasir təhlükəsizlik mühitində NATO-nun müdafiə qabiliyyətinin gücləndirilməsi, hərbi mobilliyin təmin edilməsi, təchizat zəncirinin dayanıqlılığın gücləndirilməsi və NATO-nun kollektiv logistik təminat fəaliyyətləri barədə təqdimatlar verilib.

Tərəflər NATO-ya üzv ölkələr üçün yeni təhlükəsizlik mühitinin yaradılması, Əməliyyatlar üçün Logistik Dəstək Tərəfdaşlığının (OLSP) fəaliyyət istiqamətləri, üzv dövlətlərin milli, çoxtərəfli və NATO çərçivəsində mövcud olan logistik imkanlarından birgə istifadə mexanizmləri, həmçinin Azərbaycan ilə NATO arasında hərbi logistika sahəsində əməkdaşlığın inkişaf perspektivlərini müzakirə ediblər.

Görüşdə bununla yanaşı hərbi qulluqçular üçün təlim və maarifləndirmə tədbirlərinin təşkili, həmçinin NSPA və OLSP kimi mexanizmlər vasitəsilə mövcud olan beynəlxalq və çoxtərəfli imkanlardan səmərəli faydalanma imkanları ətrafında geniş fikir mübadiləsi aparılıb.

# Belarus Respublikası Silahlı Qüvvələrinin nümayəndə heyəti ölkəmizə səfər edib







Azərbaycan və Belarus respublikaları Müdafiə nazirlikləri arasında 2026-cı il üçün ikitərəfli hərbi əməkdaşlıq planına uyğun olaraq, bu ölkənin Silahlı Qüvvələrinin rabitə rəisi - Silahlı Qüvvələrin Baş Qərargahının Rabitə İdarəsinin rəisi polkovnik Pavel Prasolun rəhbərlik etdiyi nümayəndə heyəti Bakı şəhərinə səfər edib.

Müdafiə Nazirliyi xəbər verir ki, Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsində qonaqlarla "Rabitənin təşkili və rabitə bölmələrinin tətbiqi üzrə işçi görüşü" keçirilib. Tədbirdə həmçinin rabitə bölmələrinin və vasitələrinin tətbiqi, eləcə də digər mövzulara dair qarşılıqlı fikir mübadiləsi aparılıb.

Sonra nümayəndə heyəti "N" hərbi hissəsində olub. Burada qonaqlara Azərbaycan Ordusunda rabitə işinin təşkili haqqında ətraflı məlumat verilib, müasir tələblərə cavab verən müxtəlif rabitə vasitələri və texnikalar təqdim olunub.

Səfər çərçivəsində qonaqlar Heydər Əliyev Mərkəzini və Hərb Tarixi Muzeyini ziyarət edib, ölkəmizin hərb tarixi, eləcə də Vətən uğrunda canından keçmiş şəhidlərimizin qəhrəmanlıq yolu ilə tanış olublar.

Sonda qarşılıqlı hədiyyələr təqdim olunub və xatirə şəkilləri çəkdirilib.

Qeyd edək ki, səfər ölkələrimiz arasında qoşunlarda rabitə işinin təşkili sahəsi üzrə qabaqcıl təcrübənin öyrənilməsi və kadr hazırlığı istiqamətində əlaqələrin inkişafı baxımından mühüm əhəmiyyət daşıyır.

# MMU-nun hərbi təhsil müəssisələrinin müəllimləri üçün növbəti treninqlər keçirilib







Heydər Əliyev adına Hərbi İnstitutda NATO-nun "Müdafiə Təhsilinin Genişləndirilməsi Proqramı" (DEEP) çərçivəsində Milli Müdafiə Universitetinin tabeliyindəki xüsusi təyinatlı təhsil müəssisələrinin professor-müəllim heyəti üçün treninq təşkil olunub.

Müdafiə Nazirliyi xəbər verir ki, proqrama uyğun olaraq keçirilən "Müəllimlərin təkmilləşdirilməsi treninqi"ndə "Aviasiya ingilis dili" və "Dənizçilik ingilis dili" kurslarının növbəti modulları başa çatıb.

Treninq müddətində iştirakçılara tədris prosesinə müasir yanaşmalar, dərslərin səmərəli təşkili, təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi, tədris proqramlarının müasir tələblərə uyğunlaşdırılması, eləcə də müəllim-kursant münasibətlərində səmərəli ünsiyyətin qurulması ilə bağlı məlumatlar verilib.

Sonda təlimi müvəffəqiyyətlə bitirən iştirakçılara sertifikatlar təqdim edilib və xatirə fotosu çəkilib.

# Azərbaycanla Özbəkistan arasında "Məharət-IV" kompüter dəstəkli birgə komanda-qərargah təlimi keçirilir






"Azərbaycan ilə Özbəkistan respublikaları Müdafiə nazirlikləri arasında imzalanan 2026-cı il üçün ikitərəfli hərbi əməkdaşlıq Planı"na əsasən, iki ölkə arasında "Məharət-IV" kompüter dəstəkli birgə komanda-qərargah təlimi keçirilir.

Hərbi İdarəetmə İnstitutunun Hərb Oyunları Mərkəzində keçirilən təlimə hər iki ölkədən ümumilikdə 100-dən çox hərbi qulluqçu cəlb olunub.

Müdafiə Nazirliyi xəbər verir ki, təlimin keçirilməsində əsas məqsəd Azərbaycan və Özbəkistan Müdafiə nazirlikləri arasında hərbi təhsil və döyüş hazırlığı sahəsində əməkdaşlığı gücləndirmək, komandirlərin hərbi qərarvermə bacarıqlarını təkmilləşdirmək, qərargah fəaliyyətləri və əməliyyatların planlaşdırılması prosesi üzrə təcrübə mübadiləsi aparmaqdan ibarətdir.

Qeyd edək ki, "Məharət-IV" kompüter dəstəkli birgə komanda-qərargah təlimi noyabrın 28-dək davam edəcək.

## Ötən həftə 62 mina və 468 digər partlamamış hərbi sursat zərərsizləşdirilib

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumların noyabrın 16-22-də icra etdiyi əməliyyatlara dair məlumat yayıb.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, hesabat dövründə Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilan rayonları ərazisində əməliyyatlar aparılıb. Nəticədə 46 piyada əleyhinə, 16 tank əleyhinə mina və 468 digər partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib. Ümumilikdə 469,8 hektar ərazi mina və digər partlamamış hərbi sursatdan təmizlənib.

# “Eternity-2026” təliminin “Yüksək Səviyyəli Müşahidəçi Günü” keçirilib







*Azərbaycan, Gürcüstan və Türkiyə nümayəndələrinin iştirakı ilə ölkəmizdə təşkil olunan “Eternity-2026” kompüter dəstəkli birgə komanda-qərargah təliminin “Yüksək Səviyyəli Müşahidəçi Günü” keçirilib.*

Müdafiə Nazirliyi xəbər verir ki, əvvəlcə qonaqlar təlim poliqonunda bölmələr tərəfindən enerji daşınması üzrə kritik infrastruktur obyektlərinin mühafizəsi və müdafiəsi, ehtimal olunan təhdidlərə və asimmetrik qüvvələrdən qaynaqlanan təhlükələrə qarşı icra edilən fəaliyyətləri izləyiblər.

Qarşıya qoyulan tapşırıqların vaxtında və dəqiqliklə yerinə yetirilməsi, eləcə də təlim iştirakçılarının peşəkarlığı müşahidəçilər tərəfindən yüksək qiymətləndirilib.

Sonra Milli Müdafiə Universitetinin Hərbi İdarəetmə İnstitutunun Hərb Oyunları Mərkəzində “Eternity-2026” kompüter dəstəkli birgə komanda-qərargah təliminin yekunlaşması münasibətilə bağlanış mərasimi keçirilib.

Tədbir hər üç ölkənin azadlığı uğrunda canından keçənlərin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi və iştirakçı ölkələrin Dövlət himnlərinin səsləndirilməsi ilə başlayıb.

Çıxış edənlər bildiriblər ki, təlim zamanı nümayiş etdirilən sıx əməkdaşlıq və yüksək əzmkarlıq qarşıya qoyulan məqsədlərin uğurla icrasına və regional tərəfdaşlığın möhkəmlənməsinə mühüm töhfə verib.

Qeyd olunub ki, təlim müddətində qazanılan nəzəri biliklər və praktiki təcrübə birgə fəaliyyət qabiliyyətini yeni səviyyəyə yüksəldəcək.

Mərasimin sonunda təlim iştirakçılarına sertifikat və hədiyyələr təqdim edilib, xatirə fotosu çəkdirilib.







# Gücün, iradənin və əzmkarlığın sınağı



Fiziki hazırlıq hərbi xidmətin ayrılmaz tərkib hissəsi olmaqla, şəxsi heyətin qarşıya qoyulan tapşırıqları uğurla yerinə yetirməsində mühüm rol oynayır. Hərbi qulluqçunun sağlam və möhkəm bədən quruluşuna malik olması xidmət zamanı müvafiq tapşırıqların öhdəsindən gəlməsi üçün başlıca şərtlərdəndir. Məhz buna görə də Azərbaycan Ordusunda şəxsi heyətin fiziki dözümlülüyünün artırılmasına, şəxsi heyətin sağlam həyat tərzinin təşviqinə xüsusi diqqət yetirilir.

Peşəkar hərbi qulluqçu olmaq yalnız nəzəri bilik və taktiki vərdişlərlə məhdudlaşmır, bu sahə yüksək dözüm, sarsılmaz iradə, çeviklik və güc tələb edir. Müxtəlif idman növləri ilə müntəzəm məşğul olmaq hərbi qulluqçuların funksional imkanlarını genişləndirir, onların mürəkkəb şəraitdə fəaliyyət göstərmək qabiliyyətini artırır. İdman məşqləri və turnirlər, eyni zamanda, özünəinamın möhkəmlənməsinə, hərbi intizamın və mübarizə ruhunun formalaşmasına müsbət təsir göstərir.

Daşqaldırma güc, düzgün texnika və xüsusi hazırlıq tələb edən idman növlərindəndir. Bu sahədə uğur qazanmaq üçün təkcə əzələ qüvvəsi deyil, hərəkətlərin dəqiq icrası, yüksək diqqət və öz imkanlarını düzgün hesablamaq bacarığı da vacibdir. Yarış meydanında nümayiş etdirilən göstəricilər idmançının hazırlıq səviyyəsini, məşqlərə məsuliyyətli yanaşmasını və xarakterini əks etdirir.

Bu baxımdan Müdafiə nazirinin müvafiq əmrinə əsasən, Azərbaycan Ordusunda mütəmadi olaraq daşqaldırma üzrə ordu birinciliyi təşkil olunur. Cari ilin noyabrın 16-dan 21-dək “N” hərbi hissəsində daşqaldırma üzrə birincilik keçirildi. Turnirin əsas məqsədi bu idman növünə marağı artırmaqla yanaşı, hərbi qulluqçuların fiziki qüvvə göstəricilərini qiymətləndirmək və hazırlıq səviyyəsini yüksəltməkdir.



Birinciliyin açılış mərasimində polkovnik Cavid Ağayev çıxış edərək tədbirin mahiyyəti, qarşıya qoyulan vəzifələr və iştirakçıların üzərinə düşən məsuliyyət barədə danışdı. O, çıxışında qeyd etdi: “Fiziki hazırlıq hərbi qulluqçunun döyüş qabiliyyətini və peşəkarlığını şərtləndirən mühüm amillərdəndir. Daşqaldırma üzrə birinciliyin təşkilində əsas məqsəd şəxsi heyətin fiziki imkanlarını qiymətləndirmək, eyni zamanda, bu idman növünə marağı artırmaqdır. Əminəm ki, hərbi qulluqçular öz bacarıq və məharətlərini nümayiş etdirərək mübarizəyə rəng qatacaqlar.

**(Ardı 8-ci səhifədə)**







25 Noyabr - Kəlbəcər Şəhəri Günü

# Zəfərin yaratdığı reallıq

*Azərbaycanın qədim yaşayış məskənlərindən biri olan Kəlbəcər zəngin təbii sərvətləri, özünəməxsus coğrafi mövqeyi və tarixi-mədəni irsi ilə seçilən bölgələrimizdəndir. Kiçik Qafqazın dağlıq ərazisində yerləşən bu diyar yüksək dağ silsilələri, geniş yaylaqları, meşələri, gur çayları və mineral su mənbələri ilə Azərbaycanın təbiət mənzərəsində xüsusi yer tutur. Kəlbəcərin ərazisində aşkar edilmiş qədim yaşayış məskənləri, mağaralar və qayaüstü təsvirlər bu torpağın qədim tarixə malik olduğunu təsdiqləyir.*




Kəlbəcərin tarixi keçmişi burada aşkar edilmiş arxeoloji tapıntılar və qədim yaşayış izləri ilə sıx bağlıdır. Ərazidə aparılmış tədqiqatlar nəticəsində 30 min ildən artıq tarixə malik yaşayış məskənləri, minilliklərə aid qayaüstü təsvirlər və müxtəlif dövrləri əks etdirən maddi-mədəniyyət nümunələri üzə çıxarılıb. Qədim qəbiristanlıqlar, daş qoç və at fiqurları, başdaşılar, məzarüstü abidələr bölgənin tarixi-mədəni irsinin mühüm hissəsini təşkil edir. Tarixən at və qoç xalqımızın yaddaşında bolluq, bərəkət, sərvət rəmzinə çevrilmişdir. Bu nümunələr Kəlbəcər ərazisində müxtəlif tarixi dövrlərdə formalaşmış ictimai həyat, məişət və mədəniyyət haqqında mühüm məlumatlar verir. Bölgənin tarixi yalnız abidələrdə deyil, həm də nəsildənnəslə ötürülən el adətlərində, sənətkarlıq ənənələrində və insanların doğma torpağa bağlılığında yaşayıb.

Murovdağ və Dəlidağ silsilələri, Tərtər çayının yaratdığı təbii mənzərələr, İstisu mineral bulaqları bölgənin önəmli təbii sərvətlərindəndir. Kəlbəcərin zəngin bitki örtüyü, su ehtiyatları və əlverişli yaylaq sahələri heyvandarlıq, arıçılıq və kənd təsərrüfatının inkişafına geniş imkanlar yaradıb. Bu təbii imkanlar bölgənin gələcək iqtisadi inkişafı və turizm potensialının reallaşdırılması baxımından da böyük əhəmiyyət daşıyır.

Uzun illər öz təbii gözəllikləri, zəngin sərvətləri və ənənəvi təsərrüfat həyatı ilə tanınan Kəlbəcər 1993-cü il aprelin 2-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildi.

İşğal nəticəsində çoxsaylı mülki sakinlər qətlə yetirildi, yüzlərlə insan əsir götürüldü və itkin düşdü. On minlərlə sakin doğma yurdunu tərk edərək Azərbaycanın müxtəlif bölgələrində müvəqqəti məskunlaşmağa məcbur oldu. Yaşayış evləri, məktəblər, xəstəxanalar, mədəniyyət müəssisələri və digər infrastruktur obyektləri dağıdıldı, tarixi-mədəni abidələrimizə ciddi ziyan vuruldu. İşğalçılar rayonun təbii sərvətlərini talan etdilər, meşələrə və ətraf mühitə ciddi zərər yetirdilər. Bir vaxtlar insanların gündəlik həyatının qaynadığı kəndlər və yaşayış məntəqələri boşaldı. Kəlbəcərlilər üçün doğma yurdun həsrəti uzun illər davam edən ağır sınağa çevrildi.

İşğalın aradan qaldırılması üçün beynəlxalq səviyyədə qəbul edilmiş qərarlar da uzun müddət icra olunmadı. BMT Təhlükəsizlik Şurasının 1993-cü il aprelin 30-da qəbul etdiyi 822 saylı qətnamədə Kəlbəcər rayonundan və Azərbaycanın digər işğal olunmuş ərazilərindən işğalçı qüvvələrin dərhal çıxarılması tələb edilirdi. Lakin Ermənistan bu tələblərə əməl etmədi. Azərbaycan dövləti isə ərazi bütövlüyünün bərpası istiqamətində ardıcıl siyasətini davam etdirdi. Ölkəmizin iqtisadi qüdrətinin artırılması, beynəlxalq mövqelərinin möhkəmləndirilməsi və müasir ordu quruculuğunun həyata keçirilməsi qarşıya qoyulan əsas məqsədlərdən idi. Bütün bu tədbirlər gələcəkdə tarixi torpaqlarımızın azad olunmasına imkan verən güclü dövlət və ordu potensialının formalaşmasına xidmət etdi.

2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı hərbi təxribatlarına cavab olaraq Azərbaycan Ordusunun əks-hücum əməliyyatları Vətən müharibəsinin başlanğıcı oldu. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuz döyüş meydanında yüksək peşəkarlıq, qətiyyət və qəhrəmanlıq nümayiş etdirdi. Bu tarixi Qələbənin əldə olunmasında Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu ordu quruculuğu siyasətinin mühüm rolu oldu. Məhz Ulu Öndərin rəhbərliyi dövründə milli ordunun formalaşdırılması, hərbi idarəetmə sisteminin möhkəmləndirilməsi və inkişafı istiqamətində mühüm addımlar atıldı. Sonrakı illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə bu siyasət ardıcıl şəkildə davam etdirildi, ordunun maddi-texniki bazası gücləndirildi, müasir silah və texnikalar alındı, hərbi qulluqçuların peşəkarlığının artırılması və döyüş hazırlığının yüksəldilməsi istiqamətində genişmiqyaslı islahatlar həyata keçirildi. Nəticədə, Azərbaycan Ordusu müasir dövrün tələblərinə cavab verən, yüksək döyüş qabiliyyətinə malik güclü hərbi qüvvəyə çevrildi. 44 gün davam edən müharibə ərzində hərbi qulluqçularımız düşmənin müdafiə xətlərini yararaq strateji yüksəklikləri və yaşayış məntəqələrini azad etdilər. Ordumuzun müasir döyüş imkanları, şəxsi heyətin yüksək mənəvi-psixoloji hazırlığı və hərbi qulluqçularımızın qəhrəmanlığı qələbənin əldə olunmasında mühüm rol oynadı. Noyabrın 8-də Şuşanın azad edilməsi Azərbaycan Ordusunun hərbi qüdrətini və döyüş əzmini bütün dünyaya nümayiş etdirdi. Bu tarixi Qələbə Ermənistanı hərbi əməliyyatları dayandırmağa və üçtərəfli Bəyanatı imzalamağa məcbur etdi.

2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanata əsasən, Kəlbəcər rayonunun noyabrın 25-dək Azərbaycana qaytarılması nəzərdə tutuldu. 27 ildən artıq davam edən işğala son qoyuldu. Artıq altı ildir ki, Kəlbəcər azaddır.

Kəlbəcəri boşaldan qeyri-qanuni silahlı dəstələr və sakinlər rüsvayçı hərəkətləri və barbar davranışları ilə yadda qaldılar. Azərbaycanlılara qalmaması üçün evlərə, bağlara od vuranlar öz vəhşi xislətlərini nümayiş etdilər. Beynəlxalq ictimaiyyətin gözü qarşısında baş verən bu vəhşiliklər bir daha erməni vandalizmini dünya birliyinə nümayiş etdirdi. İşğal olunmuş ərazilərdə ekologiyaya ziyan vurulması və mülki obyektlərin dağıdılması beynəlxalq konvensiyalara görə hərbi cinayət sayılır.

Beləliklə, Azərbaycan Ordusunun Vətən müharibəsində qazandığı tarixi Zəfər nəticəsində Kəlbəcərin işğalına son qoyuldu. Noyabrın 25-də Azərbaycan Ordusunun bölmələri rayon ərazisinə daxil oldu və dövlət suverenliyimiz bu torpaqlarda yenidən bərpa edildi. Ermənistan tərəfinin müraciəti nəzərə alınaraq rayonun təhvil verilməsi üçün müəyyən edilmiş müddətin uzadılmasına razılıq verilməsi Azərbaycanın humanist mövqeyini və beynəlxalq öhdəliklərə sadiqliyini nümayiş etdirdi. Halbuki Kəlbəcərin işğalı zamanı dinc əhali doğma yurdunu tərk edərkən eyni humanist münasibətlə qarşılaşmamış, insanlar ağır şəraitdə, təhlükə və məhrumiyyətlər içində öz ev-eşiklərini tərk etməyə məcbur olmuşdular. İşğal illərində azərbaycanlı əhaliyə yaşadılan faciələrə baxmayaraq, Azərbaycan tərəfi Kəlbəcərin təhvil verilməsi prosesində qarşı tərəfin müraciətini nəzərə aldı və mülki əhalinin təhlükəsiz şəkildə çıxması üçün əlavə vaxt verilməsinə razılıq göstərdi. Bu yanaşma bir daha təsdiq etdi ki, Azərbaycan öz torpaqlarını hərbi gücü və qətiyyəti ilə azad etsə də, humanizm prinsiplərini də rəhbər tutur. Kəlbəcərin Azərbaycana qaytarılması yalnız ərazi bütövlüyümüzün bərpası baxımından deyil, həm də doğma yurdlarından didərgin düşmüş insanların qayıdışına yol açması ilə əlamətdar oldu. Bu hadisə Azərbaycan Ordusunun hərbi uğurlarının və dövlətimizin qətiyyətli siyasətinin mühüm nəticələrindən biri kimi tarixə düşdü.

İşğaldan azad edildikdən sonra Kəlbəcərdə təhlükəsizliyin təmin olunması və genişmiqyaslı bərpa-quruculuq işlərinə başlanıldı. İlk növbədə, ərazinin mina və partlamamış hərbi sursatlardan təmizlənməsi, nəqliyyat-kommunikasiya infrastrukturunun yaradılması və yaşayış məntəqələrinin yenidən qurulması istiqamətində tədbirlər həyata keçirildi. Mürəkkəb dağlıq relyefə baxmayaraq, yeni avtomobil yolları, tunellər və körpülər inşa edildi. Bölgədə mövcud su ehtiyatlarının olması, xüsusilə də Kəlbəcər rayonunun mənzərəli dağlıq bölgəsində, dəniz səviyyəsindən 1600 metrdən çox yüksəklikdə yerləşən termal su yataqlarından götürən və təbii halda 60°C-dən yuxarı temperaturda çıxan "İstisu" mineral suyu regionun minerallarla zəngin nadir suyu kimi xarakterizə olunur. Təməli 2022-ci il iyunun 26-da Prezident İlham Əliyev tərəfindən qoyulan "İstisu" mineral su zavodunda işlər 2024-cü ildə tam başa çatdırılıb. Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolu, Murovdağ silsiləsinin altından çəkilən tunel bölgənin nəqliyyat əlaqələrinin yaxşılaşdırılması baxımından mühüm əhəmiyyət daşıyır. Bununla yanaşı, elektrik enerjisi, su təchizatı və digər kommunal xidmətlərin təmin olunması, sosial obyektlərin yaradılması istiqamətində layihələr icra edilir. Görülən işlər Kəlbəcərin müasir yaşayış məkanına çevrilməsi və bölgənin iqtisadi potensialının bərpası üçün möhkəm zəmin yaradır.

Böyük Qayıdış prosesi Kəlbəcərin həyatında yeni mərhələnin başlanğıcı oldu. Uzun illər doğma torpaqlarından ayrı düşmüş sakinlərin geri dönüşü dövlətimizin qarşıya qoyduğu əsas vəzifələrdən birinin reallaşmasıdır. 2025-ci il avqustun 20-dən etibarən keçmiş məcburi köçkünlərin Kəlbəcər şəhərinə qayıdışına başlanıldı. Avqustun 21-də Prezident İlham Əliyev şəhərə köçən sakinlərlə görüşərək onlara yeni mənzillərin açarlarını təqdim etdi. Beləliklə, uzun illər yurd həsrəti ilə yaşayan kəlbəcərlilər doğma şəhərlərində yeni həyata qədəm qoydular. Yeni yaşayış binalarının, sosial obyektlərin və zəruri infrastrukturun istifadəyə verilməsi sakinlərin rahat yaşayışının təmin edilməsinə xidmət edir. Doğma evlərinə qayıdan ailələrin sevinci Kəlbəcərdə aparılan quruculuq işlərinin ən mühüm nəticəsidir. Kəlbəcər rayonunda məskunlaşma davam edir. 6 noyabr 2026-cı ilə qədər Kəlbəcərdə 162 ailə olmaqla 681 nəfər məskunlaşıb. Kəlbəcərdə yaşayış məntəqəsinin salınması üçün 20 illik perspektiv və həmin müddətdən sonrakı inkişaf nəzərə alınmaqla, 137 hektar torpaq sahəsi ayrılıb. Birinci mərhələdə kəndə 350 ailənin köçürülməsi üçün birmərtəbəli fərdi evlərin inşası planlaşdırılır. Tikiləcək 350 evin 100-ü ikiotaqlı, 167-si üçotaqlı, 57-si dördotaqlı, 26-sı isə beşotaqlı olacaq. Burada, həmçinin 360 şagird yerlik məktəb, 120 yerlik uşaq bağçası inşa ediləcək.

Kəlbəcərin gələcək inkişafında bölgənin zəngin təbii və iqtisadi potensialından səmərəli istifadə olunması mühüm yer tutur. İstisu mineral su mənbələrinin imkanlarının yenidən dəyərləndirilməsi, müasir turizm infrastrukturunun yaradılması, dağ turizminin inkişafı, heyvandarlıq və arıçılıq ənənələrinin bərpası bölgənin iqtisadi həyatına yeni töhfələr verəcək. Eyni zamanda, tarixi abidələrin qorunması, mədəni irsin bərpası və gələcək nəsillərə çatdırılması da diqqət mərkəzində saxlanılır. Kəlbəcərin təbii sərvətləri, əlverişli turizm imkanları və strateji coğrafi mövqeyi onun gələcək inkişafı üçün geniş perspektivlər açır. Həyata keçirilən layihələr bu qədim diyarın yenidən Azərbaycanın mühüm iqtisadi və turizm mərkəzlərindən birinə çevrilməsinə xidmət edir.

Azərbaycan Respublikası Prezidentinin 2023-cü il iyulun 31-də imzaladığı Sərəncama əsasən, hər il noyabrın 25-i Kəlbəcər Şəhəri Günü kimi qeyd olunur. Bu əlamətdar gün 44 günlük Vətən müharibəsində qazanılmış tarixi Qələbənin nəticələrindən birini, doğma torpaqlarımızın işğaldan azad edilməsini və dövlət suverenliyimizin bərpasını təcəssüm etdirir. Kəlbəcər Şəhəri Günü münasibətilə keçirilən tədbirlərdə şəhidlərimizin əziz xatirəsi ehtiramla yad edilir, döyüşlərdə sağlamlığını itirmiş soydaşlarımızın fədakarlığı və hərbi qulluqçularımızın xidmətləri bir daha xatırlanır. Bu tarix həm də gənc nəslə Vətən sevgisinin, torpağa bağlılığın və milli birliyin əhəmiyyətini aşılamaq baxımından xüsusi məna daşıyır.

Bu gün Kəlbəcərdə həyat yenidən canlanır. Vaxtilə işğalın ağır nəticələri ilə üzləşmiş yaşayış məntəqələrində evlər tikilir, yollar salınır, sosial infrastruktur yaradılır və sakinlərin doğma yurdlarına qayıdışı davam edir. Altı il əvvəl Azərbaycan Ordusunun tarixi Zəfəri ilə azadlığına qovuşan Kəlbəcər indi quruculuq və inkişaf mərhələsini yaşayır. Bu qədim diyarın yenidən dirçəlməsi xalqımızın sarsılmaz iradəsinin, dövlətimizin qüdrətinin və Vətənə bağlılığının bariz nümunəsidir. Kəlbəcərin azadlığı uğrunda canlarından keçən şəhidlərimizin müqəddəs xatirəsi daim yaşayacaq, onların qanı bahasına qorunan torpaqlarda üçrəngli bayrağımız əbədi dalğalanacaq.

**Emil MURADLI**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## *(İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)*

***Suallar:***

***1. Azərbaycanın öz müstəqilliyini elan etməsi. Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət quruculuğu.***

***2. Azərbaycan Respublikası dövlətlərarası münasibətlər sistemində.***

**Mövzu: Müstəqillik tariximiz. Azərbaycan Respublikası dövlətlərarası münasibətlər sistemində.**

### Azərbaycanın öz müstəqilliyini elan etməsi. Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət quruculuğu

1918-ci il mayın 28-də yaradılan Azərbaycan Xalq Cümhuriyyəti müsəlman Şərqində ilk demokratik respublika olmaqla yanaşı, xalqımızın tarixində mühüm bir hadisə idi. Belə ki, əsrlər boyu müstəqillik arzusu ilə yaşayan xalqımız nəhayət ki, öz müstəqil dövlətinə sahib oldu.

Birinci Dünya müharibəsində böyük dövlətlərin dünyanı bölüşdürmək uğrunda mübarizəsinin həlledici mərhələyə daxil olduğu, ölkənin başı üzərini yeni işğal təhlükəsinin aldığı çox mürəkkəb daxili və beynəlxalq şəraitdə yaradılan Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinin əsas hissəsini, ilk növbədə, Azərbaycanın müstəqilliyinin dünya dövlətləri tərəfindən tanınmasına nail olmaq, qonşu dövlətlərlə münasibətləri qaydaya salmaq, həmçinin Cənubi Qafqaz respublikaları arasında mübahisəli məsələlərin, xüsusilə Ermənistanın ərazi iddiası məsələsinin həlli təşkil edirdi. Azərbaycan Xalq Cümhuriyyəti (AXC) dövründə xarici siyasət və diplomatik əlaqələr Xarici İşlər Nazirliyi, Azərbaycanın xarici dövlətlərdəki səfirlikləri, diplomatik nümayəndəlikləri, konsulluqları, habelə xarici dövlətlərin ölkəmizdəki diplomatik nümayəndəlikləri və konsulluqları vasitəsilə həyata keçirilmişdir.

1918-ci il iyunun 4-də müstəqil Azərbaycan hökuməti ilə Osmanlı dövləti arasında imzalanan "Qarşılıqlı yardım və dostluq haqqında" müqavilə Cümhuriyyətin ilk diplomatik sənədi kimi qəbul edilir. 1918-ci il sentyabrın 15-də Bakının işğaldan azad edilməsi Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı tarixinə yazılan şanlı səhifələrdəndir. Noyabrın 16-da Bakıda yenidən fəaliyyətə başlamış Azərbaycan Milli Şurası respublikada ali hakimiyyət orqanı kimi 120 nəfərdən ibarət Azərbaycan Cümhuriyyəti Parlamentini yaratmaq haqqında Qanun qəbul etdi.

Bu dövrdə AXC-nin parlamenti və hökuməti xarici təhlükənin qarşısını almaq üçün müstəqil respublikanın beynəlxalq aləmdə tanınması istiqamətində böyük iş aparırdı. 1918-ci il dekabrın 7-də Azərbaycan parlamenti Paris Sülh Konfransında iştirak etmək üçün parlamentin sədri Ə.M.Topçubaşovun başçılığı ilə geniş səlahiyyətlərə malik xüsusi nümayəndə heyətinin göndərilməsi haqqında qərar qəbul etmişdi. Cümhuriyyət dövrünün görkəmli dövlət xadimlərindən biri olan Ə.M.Topçubaşov qarşıya çıxan bütün çətinliklərə baxmayaraq, AXC-nin tanınması üçün böyük fədakarlıq göstərdi. Nəticədə 20 yanvar 1920-ci ildə Azərbaycanın müttəfiq dövlətlərin Ali Şurası tərəfindən de-fakto tanınması haqqında qərar qəbul olundu.

Azərbaycanın müstəqilliyi Antanta Ali Şurası tərəfindən tanındıqdan sonra hökumətin hazırladığı "Qərbi Avropa və Amerikada Azərbaycan Cümhuriyyətinin diplomatik missiyalarının yaradılması və Paris Sülh Konfransındakı Azərbaycan nümayəndəliyinin ləğv edilməsi haqqında" qanun layihəsi parlamentdə müzakirə olundu və qəbul edildi. Belçika, İsveçrə, Niderland, Çexiya və Slovakiya, Finlandiya və digər dövlətlər Bakıda öz konsulluqlarını açdılar. ABŞ, İngiltərə, Fransa və İtaliya Azərbaycan ilə iqtisadi əlaqələri genişləndirməyə başladı.

1920-ci il martın 20-də Azərbaycan ilə İran arasında əməkdaşlığın bütün sahələrini əhatə edən saziş və müqavilələr imzalanmışdı. Tərəflər arasında imzalanan dostluq müqaviləsinə əsasən, İran AXC-ni de-yure tanıdığını bildirdi. Qısa müddətdə Tehranda Azərbaycanın səfirliyi, Təbrizdə baş konsulluğu, Rəştdə konsulluğu, Ənzəlidə, Məşhəddə vitse-konsulluğu, Xoy və Əhərdə konsul-agentlikləri yaradıldı. 1920-ci il aprelin ortalarında Azərbaycan parlamenti Böyük Britaniya, Fransa, İtaliya, ABŞ, İsveç, Polşa, Latviya, Litva, Estoniya, Finlandiya, Ukrayna, Rumıniya, Almaniya və Rusiyada diplomatik nümayəndəliklər təsis etmək haqqında qanun qəbul etdi.

Ümumiyyətlə, 1918-1920-ci illərdə AXC hökumətinin Ermənistan, Gürcüstan, Türkiyə, Dağlılar Respublikası və Türküstanda diplomatik nümayəndəlikləri, İranda səfirliyi, Kuban və Don hökumətləri yanında səlahiyyətli nümayəndəsi, Paris Sülh Konfransında səlahiyyətli nümayəndə heyəti fəaliyyət göstərmişdir. Beləliklə, aprel işğalı ərəfəsində AXC təcridçilikdən çıxıb geniş beynəlxalq əlaqələr sisteminə daxil olmuşdu. Lakin az sonra - aprelin 28-də XI Qızıl ordunun Azərbaycanı işğalı ilə Xalq Cümhuriyyətinin süqut etməsi ölkəmizin beynəlxalq münasibətlər sistemində müstəqil dövlət kimi iştirakını dayandırdı.

### Azərbaycan Respublikası dövlətlərarası münasibətlər sistemində

XX yüzilin sonunda dünyada baş verən qlobal proseslər, Varşava Müqaviləsi Təşkilatının ləğv edilməsi, "soyuq müharibə"nin başa çatması, SSRİ-nin dağılması beynəlxalq aləmdə siyasi mühitin ciddi şəkildə dəyişməsinə və yeni geosiyasi vəziyyətin yaranmasına səbəb oldu.

Mühüm geosiyasi məkanda yerləşən Azərbaycan Respublikasının 1991-ci il oktyabrın 18-də öz dövlət müstəqilliyini bəyan etməsi və 80-ci illərin sonu - 90-cı illərin əvvəllərində beynəlxalq aləmdə baş verən dəyişikliklər milli dövlətçilik prinsiplərinə uyğun yeni xarici siyasət kursunun formalaşdırılması və həyata keçirilməsini ən vacib məsələ kimi ön plana çəkdi. Qısa müddət ərzində dünyanın bir sıra dövlətləri tərəfindən rəsmi surətdə tanınmış Azərbaycan Respublikası 1992-ci il martın 2-də BMT-nin üzvlüyünə qəbul edildi.

Azərbaycan dövlətinin xarici siyasət fəaliyyətinin Ermənistanın hərbi təcavüzü ilə dərinləşən ciddi siyasi və iqtisadi problemlərlə müşayiət olunması onun diplomatiyası qarşısında çox mühüm vəzifələr qoyurdu. Təcavüzün və millətçi separatizmin qarşısını almaq, onların ağır nəticələrini aradan qaldırmaq, dövlətin ərazi bütövlüyünü və təhlükəsizliyini təmin etmək, dünya birliyi ilə siyasi və iqtisadi inteqrasiyaya girmək zərurəti məqsədyönlü, ardıcıl və fəal xarici siyasətin həyata keçirilməsini tələb edirdi. Beynəlxalq birliyi Azərbaycan ilə qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinin qurulması zəruriliyinə inandırmaq, milli maraqları dünya dövlətlərinin kəsişən və toqquşan mənafeləri ilə uzlaşdırmaq, Azərbaycanın müstəqilliyinə və təhlükəsizliyinə beynəlxalq təminat almaq üçün çox ciddi səylər edilməli və gərgin fəaliyyət göstərilməli idi.

Belə bir şəraitdə yalnız 1993-cü ilin ikinci yarısından Ulu Öndər Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışı Azərbaycanda müstəqil dövlətçilik ideyalarının bərqərar olmasına şərait yaratdı. Həmin dövrdən başlayaraq həyata keçirilən xarici siyasətimiz, məhz Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlıdır.

Azərbaycanın milli təhlükəsizliyi onun dünya və region dövlətləri, habelə beynəlxalq təşkilatlarla münasibətlərdə balanslaşdırılmış strateji xətt yeritməsini zərurətə çevirdi. Bu baxımdan, Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının istismarına dair 1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi" ölkəmizin dünya dövlətləri ilə qarşılıqlı əlaqələrinin dərinləşməsi və beynəlxalq mövqelərinin möhkəmləndirilməsinə güclü təkan verdi. 1998-ci il sentyabrın 7-8-də 32 dövlətin və 13 beynəlxalq təşkilatın nümayəndələrinin iştirakı ilə tarixi "Böyük İpək Yolu"nun bərpası üzrə keçirilmiş Bakı beynəlxalq konfransı və onun nəticələri Azərbaycanın xarici siyasətinin qazandığı ən mühüm nailiyyətlərindən biridir.

Azərbaycan beynəlxalq təşkilatlara üzv olmaqla yanaşı, onların işlərində müntəzəm, eləcə də fəal surətdə iştirak etmək və səmərəli əməkdaşlıq ölkəmizin problemlərini dünya ictimaiyyətinə çatdırmaq üçün mühüm əhəmiyyət kəsb edirdi. Bu baxımdan, 1994-cü il mayın 4-də Ulu Öndər Heydər Əliyevin "Sülh naminə tərəfdaşlıq" proqramının çərçivə sənədini imzalaması Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmlənməsi istiqamətində atılan mühüm addımlardan biri oldu. Bunun ardınca, 1996-cı il aprelin 22-də Lüksemburqda Avropa İttifaqı və Azərbaycan Respublikası arasında ticarət, sərmayə, iqtisadiyyat, qanunvericilik, mədəniyyət, immiqrasiya və qeyri-qanuni ticarətin qarşısının alınması sahəsində əməkdaşlığı nəzərdə tutan "Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi" imzalanmışdır.

Azərbaycanın Avropa institutlarına inteqrasiyası istiqamətində Avropa Şurasının bərabərhüquqlu üzvü olması respublikamızın mühüm problemlərinin dünya ictimaiyyətinin diqqətinə obyektiv çatdırılması üçün yeni və çox mötəbər tribuna vermiş oldu. Belə ki, Avropa Şurası Nazirlər Komitəsinin 2001-ci il yanvarın 17-də nümayəndələr səviyyəsində keçirilmiş iclasında ölkəmiz Avropa Şurasına tamhüquqlu üzv kimi qəbul olundu.

Ulu Öndər Heydər Əliyevin xarici siyasət kursunu novatorcasına və dinamik şəkildə davam etdirən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev yüksək diplomatik istedadı sayəsində ölkəmizin dünyanın siyasi-iqtisadi mənzərəsini müəyyənləşdirən aparıcı dövlətlərlə və beynəlxalq təşkilatlarla münasibətləri keyfiyyətcə yeni müstəvidə daha da inkişaf etdirir. 2003-cü ildən başlayaraq, 23 il ərzində xarici siyasət sahəsində böyük uğurlar əldə edilmişdir. Xüsusilə qeyd etmək lazımdır ki, ölkəmiz ilə əməkdaşlıq etmək istəyən ölkələrin sayı artmış, nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlıq genişlənmişdir. Bu baxımdan, Azərbaycan 2004-cü ildə əsas məqsədi Cənubi Qafqaz dövlətlərinin siyasi, iqtisadi cəhətdən Avropa dəyərlərinə yaxınlaşmasını sürətləndirməkdən ibarət olan Avropa qonşuluq siyasətinə qoşulmuşdur. 2006-cı ildə Azərbaycan ilə Avropa İttifaqı arasında enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair Anlaşma Memorandumu imzalanmış, 2008-ci ildə isə Avropa İttifaqının "Şərq tərəfdaşlığı" proqramına qoşulmaqla bu siyasi, iqtisadi əməkdaşlıq daha da genişlənmiş və keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur.

Dövlət və hökumət başçılarının, Nobel mükafatı laureatlarının, dünyada tanınmış ictimai-siyasi xadimlərin iştirakı ilə keçirilən Bakı Beynəlxalq Humanitar Forumu artıq ənənə halını almışdır. Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının VII Baş Assambleyasına, Dünya dini liderlərinin Sammitinə və digər nüfuzlu tədbirlərə ev sahibliyi edən Bakı artıq dünyanın qlobal səviyyəli tədbirlərinin keçirildiyi mərkəzlərdən biri kimi qəbul olunur. Bununla yanaşı, Azərbaycan müsəlman aləmində çox böyük hörmət, nüfuz qazanmışdır. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin apardığı siyasət, yəni, həm ölkə daxilində, həm də xaricdə bu istiqamətdə Azərbaycanın həyata keçirdiyi tədbirlər İslam aləmində həmrəyliyi, əməkdaşlığı və müsəlman birliyini daha da möhkəmləndirir. Həmçinin son illərdə ölkəmizin ev sahibliyi etdiyi, eləcə də dövlət başçısının təşəbbüsü ilə keçirilən bir sıra mühüm əhəmiyyət kəsb edən tədbirlər - VII Bakı Beynəlxalq Humanitar Forumu, VII Qlobal Bakı Forumu, Qoşulmama Hərəkatının Xarici İşlər Nazirləri Konfransı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Xarici İşlər Nazirləri Şurasının iclası, "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının Nazirlər toplantısı, Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimi və s. Azərbaycanın beynəlxalq aləmdə nüfuzunu xeyli yüksəltmişdir.

Bundan əlavə, Azərbaycan regionda yeni əməkdaşlıq formatlarının əsas təşəbbüskarı kimi çıxış edir və dövlət başçısının bütün səyləri regionun inkişafına, sabitliyin qorunub saxlanılmasına yönəlmişdir. Azərbaycan-Rusiya-İran, Azərbaycan-Türkiyə-Gürcüstan, Azərbaycan-Türkiyə-Gürcüstan-İran və digər əməkdaşlıq formatları buna əyani sübutdur. Keçən dövr ərzində müxtəlif regional əməkdaşlıq formatları çərçivəsində öz təşəbbüskarlığı ilə seçilən ölkəmiz ilk dəfə olaraq dövlət başçıları səviyyəsində keçirilmiş Azərbaycan-Rusiya Regionlararası Forumuna, həmçinin Azərbaycan, Gürcüstan, İran və Türkiyənin Xarici İşlər nazirlərinin birinci dördtərəfli görüşünə də ev sahibliyi etmişdir.

Ölkəmizin beynəlxalq enerji təhlükəsizliyinin təmin edilməsində rolu və yerini dəyərləndirən dünya ictimaiyyəti artıq onu həm də etibarlı tərəfdaş kimi tanıyır. Respublikamızın karbohidrogen strategiyasının mühüm tərkib elementlərindən olan Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəməri, eyni zamanda, ticarət və iqtisadi əlaqələrə müsbət təsir göstərən, dünyanın müxtəlif istiqamətlərini birləşdirən, Avrasiyanın nəqliyyat xəritəsini təzələyən Bakı-Tbilisi-Qars dəmir yolu xətti və lahiyəsi planlaşdırılan Zəngəzur dəhlizi Azərbaycana beynəlxalq aləmdə mühüm iqtisadi və strateji üstünlüklər qazandırmaqla yanaşı, bu gün bölgədə əməkdaşlığın, sülhün, təhlükəsizliyin təmin edilməsində xüsusi rol oynayır.

Hazırda dövlət başçısı İlham Əliyevin beynəlxalq aləmdə milli maraqlarımızın qorunması istiqamətində gördüyü çoxşaxəli işlər, apardığı müstəqil xarici siyasəti Azərbaycan Respublikasının rolunun daha da artmasını mümkün edib. Məhz dövlət başçısı İlham Əliyevin gərgin əməyi sayəsində Azərbaycan 2011-ci ildə 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına üzv seçilmişdir. Nəzərə almaq lazımdır ki, yüz illik müstəqillik tarixinə malik olan bir çox ölkələr nə qədər cəhdlər etsələr də, BMT Təhlükəsizlik Şurasının tərkibinə düşə bilməyiblər. Bu onu nümayiş etdirir ki, Azərbaycan dünya dövlətləri tərəfindən etibarlı tərəfdaş, güclü, qüdrətli dövlət kimi tanınır və qəbul edilir. 2011-ci il mayın 26-da Azərbaycan təşkilata üzv olan dövlətlərin yekdil dəstəyini əldə edərək Qoşulmama Hərəkatına tamhüquqlu üzvü qəbul edilmişdir. Səkkiz ildən sonra isə ölkəmizə göstərilən hörmətə, inama və etimada görə 120 ölkənin birləşdiyi Qoşulmama Hərəkatına sədrliyin Azərbaycana həvalə edilməsi barədə yekdil qərar qəbul edilmişdir. Ölkəmizin Qoşulmama Hərəkatı təşkilatının işində fəal iştirakı, bu təşkilata üzv ölkələrlə yaxından əməkdaşlıq münasibətlərinin qurulmasındakı uğurlu siyasəti və bu ölkələrin nümayiş etdirdikləri prinsipial mövqe sayəsində Vətən müharibəsi gedişində BMT Təhlükəsizlik Şurasında ölkəmizin mənafeyinə uyğun olmayan qətnamə lahiyəsinin qəbul edilməsinin qarşısı alınmışdır.

Ölkəmizi dünya birliyinə təqdim edən Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin balanslaşdırılmış çoxşaxəli siyasətini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin düşünülmüş strategiya və gərgin diplomatik səyləri nəticəsində müasir Azərbaycan Respublikası beynəlxalq münasibətlərin tam hüquqlu subyektinə çevrilib. Sürətli iqtisadi inkişaf və dövlətlərarası münasibətlərdə beynəlxalq hüquq normalarına sadiqlik nümayiş etdirməsi isə ölkəmizi regional lider dövlətinə çevirib və beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanıdıb.

**İdeoloji Təminat İdarəsi**

# Gücün, iradənin və əzmkarlığın sınağı



(Əvvəli 5-ci səhifədə)

Bu cür tədbirlər kollektivdə sağlam rəqabət mühitinin yaranmasına, qarşılıqlı etimadın və komanda ruhunun möhkəmlənməsinə şərait yaradır. İdmançılardan qaydalara əməl etməyi, təhlükəsizlik tələblərinə ciddi yanaşmağı və mübarizəni ədalətli aparmağı gözləyirik. Arzu edirəm ki, birincilik yüksək nəticələrlə yadda qalsın, hər kəs üçün faydalı təcrübə və xoş təəssüratlarla başa çatsın".

Daha sonra komandaların heyəti yoxlanıldı, püşkatma keçirildi və iştirakçıların çəki dərəcələri dəqiqləşdirildi. Hərbi qulluqçular yarışın qaydaları və təhlükəsizlik tədbirləri ilə təlimatlandırıldıqdan sonra yarışa start verildi.

Birincilikdə Azərbaycan Ordusunun qoşun növlərini, birlik, birləşmə və xüsusi təyinatlı təhsil müəssisələrini təmsil edən 11 yığma komanda altı çəki dərəcəsi üzrə qüvvəsini sınadı.

Gərgin mübarizənin yekununda komanda hesabında "Quru Qoşunları" birinci, "Heydər Əliyev adına Hərbi İnstitut" ikinci, "Hərbi Hava Qüvvələri" və "Xüsusi Təyinatlı Qüvvələr" komandaları isə yarışı üçüncü pillədə başa vurdular.

Mükafatlandırma mərasimində hər çəki dərəcəsi üzrə fərqlənən idmançılara medallar, komanda hesabında ən yüksək xal toplayan yığmaya isə kubok və fəxri fərmanlar təqdim olundu.

Birincilik başa çatdıqdan sonra qalib və mükafatçılarla görüşərək onların təəssüratlarını, hazırlıq prosesini və əldə etdikləri uğurlarla bağlı fikirlərini öyrəndik. Hərbi qulluqçular bu turnirin onlara yeni sınaq imkanı yaratdığını və gələcək hədəflər üçün əlavə stimul verdiyini vurğuladılar.

Qalib komandanın kapitanı kapitan **Malik Gülmalıyev** söhbət zamanı birinciliklə bağlı təəssüratlarını bölüşdü: "Komandaya rəhbərlik edərək bu yarışa qatılmaq mənim üçün ikiqat məsuliyyət idi. Hazırlıq mərhələsində hər bir üzvümüzün qalib olmaq əzmini artırmağa və mübarizəyə tam hazır olmasına çalışdıq. İdman Akademiyasında yunan-Roma güləşi üzrə aldığım ali təhsil idmanın həyatımda mühüm yer tutmasına səbəb olub. On ildir hərbi xidmətdəyəm və bu müddətdə fiziki hazırlığın xidmət fəaliyyətindəki əhəmiyyətini daim hiss etmişəm. Komandamızın birinci yerə layiq görülməsi kollektiv zəhmətimizin bəhrəsidir. Bu qələbə bizi qarşıdakı turnirlərdə daha böyük nailiyyətlərə ruhlandırır".

İştirakçılardan gizir **Aydın Ağalarov** ilk dəfə belə bir mötəbər yarışda qüvvəsini sınadığını və bunun onun üçün yaddaqalan olduğunu qeyd etdi: "Yarışda ilk dəfə iştirak etməyimə baxmayaraq, özümü sınamaq və digər silahdaşlarımla rəqabət aparmaq mənim üçün çox maraqlı oldu. On iki illik xidmətim ərzində müxtəlif məsuliyyətli tapşırıqların icrasında iştirak etmişəm. 44 günlük Vətən müharibəsində və 2023-cü ildə keçirilən antiterror əməliyyatında iştirak etmək həyatımın ən şərəfli səhifələrindəndir. "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edilməyim mənim üçün qürur mənbəyidir. Belə idman tədbirləri hərbi qulluqçuların öz fiziki potensialını yoxlaması baxımından əla fürsətdir. Gələcəkdə də bu cür birinciliklərə qatılaraq nəticələrimi daha da yaxşılaşdırmaq niyyətindəyəm".



Yarışda mübarizə aparan hərbi qulluqçulardan biri də baş çavuş **Ramil Məmmədov** idi. O, daşqaldırma turniri ilə yanaşı, xidmət yolu və idmana münasibəti barədə də fikirlərini bölüşdü: "2014-cü ildən ordu sıralarındayam. Hərbi fəaliyyətim boyunca Vətənə sədaqətlə xidmət etməyi, üzərimə düşən vəzifələri vicdanla yerinə yetirməyi əsas amalım hesab etmişəm. 44 günlük Vətən müharibəsində, eləcə də antiterror əməliyyatında iştirak etmək mənim üçün böyük döyüş və həyat məktəbi olub. "Şuşanın azad olunmasına görə" və "Şücaətə görə" medalları ilə təltif edilməyim əməyimə verilən yüksək dəyərdir. Daşqaldırma fiziki gücün düzgün idarə olunmasını, irəliyə və diqqət tələb edir. Bu cür sınaqlar öz üzərində işləmək, bacarıqları təkmilləşdirmək və yeni hədəflər müəyyənləşdirmək üçün gözəl imkandır".



Təcrübəli idmançılardan olan leytenant **Mehran Rüstəmov** isə ordu birinciliyində qazandığı ardıcıl nailiyyətlərdən danışdı. O, artıq üç ildir 70 kiloqram çəki dərəcəsində qalib olduğunu və bu titulu qorumağın davamlı əmək tələb etdiyini vurğuladı: "On altı illik hərbi xidmətim ərzində idmana daim önəm vermişəm. Məşqlər mənim üçün yalnız medal qazanmaq deyil, fiziki hazırlıq səviyyəsini daha da möhkəmləndirmək və öz imkanlarımı daim genişləndirmək vasitəsidir. Son üç ildə ordu birinciliyində 70 kiloqram çəki dərəcəsi üzrə fəxri kürsünün ən yüksək pilləsinə qalxmağım sistemli hazırlığımın nəticəsidir. 44 günlük Vətən müharibəsində, eləcə də Aprel döyüşlərində iştirakım hərbi bioqrafiyamın unudulmaz səhifələridir. 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Suqovuşanın azad olunmasına görə", "Ağdamın azad olunmasına görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunmağım mənim üçün xüsusi mənəvi dəyər daşıyır. Əvvəlki rekordlarımı təkrarlamaqla kifayətlənmək istəmirəm, əsas məqsədim daha yüksək göstəricilərə imza atmaqdır".



Qalib komandanın üzvü kiçik çavuş **Ulfan Nəbiyev** uğurunun arxasında intizamlı məşqlərin və məqsədyönlü hazırlığın dayandığını bildirdi: "Ordu üzrə daşqaldırma birinciliyində iştirak etmək mənim üçün həm böyük məsuliyyət, həm də qürurverici təcrübədir. Yarışa hazırlıq prosesində mütəmadi məşqlər edərək nəticələrimi yaxşılaşdırmağa çalışmışam. Bu cür yarışlar hərbi qulluqçuların öz bacarıqlarını nümayiş etdirməsi, təcrübə qazanması və şəxsi imkanlarını sınaması baxımından əhəmiyyətlidir. Yarış meydanında hər bir iştirakçıya uğur qazanmaq üçün bərabər şərait yaradılıb. Komanda yoldaşlarımla birlikdə mübarizə aparmaq, onların dəstəyini hiss etmək mənə əlavə stimul verir. İnanıram ki, əldə etdiyimiz nəticələr gələcək yarışlara daha böyük həvəslə hazırlaşmağımıza zəmin yaradacaq".

80 kiloqram çəki dərəcəsində birinci yeri tutan çavuş **Ruslan Abdullayev** altı dəfə qalib olduğunu qeyd edərək bu mütəmadi zəhmətin nəticəsi olduğunu diqqətə çatdırdı: "Altı dəfə ordu birinciliyinin qalibi olmaq böyük uğur olmaqla yanaşı, həm də ciddi məsuliyyətdir. Hər dəfə meydana çıxanda əvvəlki göstəricilərimi geridə qoymağa çalışıram. 80 kiloqram çəki dərəcəsində mübarizə aparmaq güc, texniki ustalıq və düzgün taktika tələb edir. İllər ərzində topladığım təcrübə yarış zamanı həyəcanı cilovlamağa və hərəkətləri daha inamla icra etməyə kömək edir. Məncə, idmanda uğurun əsas açarı qarşıya konkret hədəf qoymaq və ona çatmaq üçün səbirlə çalışmaqdır. Əldə etdiyim nailiyyətlər məşqləri dayandırmamaq, daim irəli getmək istəyimi daha da artırır".



65 kiloqram çəki dərəcəsində gümüş medala layiq görülən kursant **Fuad Əzizov** isə bu nəticəni gələcək qələbələri üçün uğurlu başlanğıc hesab etdiyini dedi. Heydər Əliyev adına Hərbi İnstitutun ikinci kursunda təhsil alan kursant fikirlərini belə ifadə etdi: "Belə mötəbər yarışda iştirak etmək və mükafatçılar sırasında yer almaq mənim üçün xoş təcrübə oldu. Mübarizə zamanı öz gücümü digər iştirakçılarla müqayisə etmək, hazırlıq səviyyəmi real qiymətləndirmək imkanı qazandım. İkinci yer məni sevindirsə də, qarşıma çempion olmaq məqsədi qoymuşam. Kursant kimi təhsil aldığım müddətdə idmana xüsusi diqqət ayırıram, çünki gələcək zabitin fiziki cəhətdən möhkəm olması vacibdir. Hər uğurun təməlində səbir, intizam və müntəzəm məşq dayanır. İnanıram ki, qarşıdakı turnirlərdə daha yaxşı çıxış edərək fəxri kürsünün ən yüksək pilləsinə qalxa biləcəyəm".



80 kiloqram çəki dərəcəsində bürünc medal qazanan kursant **Kamil Rəcəbov** motoatıcı ixtisası üzrə təhsil aldığını və fiziki hazırlığın gələcək zabitlik fəaliyyətində mühüm yer tutacağını vurğuladı: "Daşqaldırma birinciliyinə qatılmaq mənə öz imkanlarımı sınamaq və rəqiblərin hazırlıq səviyyəsini görmək fürsəti verdi. Üçüncü yerə layiq görülməyimə baxmayaraq, nəticəmi daha da yüksəltmək əzmindəyəm. Motoatıcı ixtisası üzrə təhsil aldığım üçün fiziki gücün, dözümlülüyün və çevikliyin gələcək xidmətimdə nə qədər vacib olduğunu yaxşı anlayıram. Hesab edirəm ki, kursantların belə turnirlərə cəlb olunması onların özünəinamını artırır və sağlam rəqabət mühiti yaradır. Topladığım təcrübəni növbəti məşqlərdə nəzərə alaraq zəif tərəflərim üzərində işləyəcəyəm. Əsas məqsədim gələcəkdə daha yüksək əyarlı medal qazanmaq və təmsil etdiyim təhsil müəssisəsinin uğurlarına töhfə verməkdir".

Daşqaldırma üzrə ordu birinciliyi iştirakçıların gücünü, texniki bacarıqlarını və idmana bağlılığını nümayiş etdirdiyi əlamətdar idman tədbiri kimi yadda qaldı. Müxtəlif qoşun növlərini, birlik və birləşmələri, eləcə də hərbi təhsil müəssisələrini təmsil edən komandaların gərgin mübarizəsi yarışa xüsusi rəng qatdı. Əldə olunan nəticələr idmançıların peşəkarlığının artırılması, yeni hədəflərə doğru inamla irəliləməsi baxımından mühüm əhəmiyyət daşıdı.



Belə tədbirlərin davamlı keçirilməsi Azərbaycan Ordusunda idman ənənələrinin yaşadılması, şəxsi heyətin döyüş hazırlığının gücləndirilməsi və sağlam rəqabət ruhunun formalaşdırılması baxımından böyük əhəmiyyət daşıyır. Yarış meydanında nümayiş etdirilən əzmkarlıq, intizam və qələbə iradəsi bir daha sübut etdi ki, yüksək fiziki hazırlıq hərbi qulluqçunun uğurlu xidmətinin əsas təminatçısıdır.

**Kapitan**
**Əli ABIYEV**
**"Azərbaycan Ordusu"**

**Redaktor**
mayor
Ceyhun CƏFƏRLİ

**Telefon**
Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatı üzrə növbətçisi:
(012) 404-76-22

**Ünvanımız**
Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Qəzetin hesabı**
2 saylı xəzinədarlıq
Kod: 200189
VÖEN: 1500444791

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

**Növbətçi**
Lalə HÜSEYNOVA

Lisenziya № 361
Sifariş № 1003
Nüsxə 3653